

**Aysel Novruz**

Zamanla keçər
Sən də keçərsən
ömür də keçər.
Gələcək də
ağarmağa ürək etməyən saçlar da.
Ümid keçər,
Kədər keçər,
Həvəs keçər.
“Hə, nolsun?” deyib
özünü yeyərsən hər gün.
O da keçər...
Yeni açmış alça çiçəklərinə baxıb
meyit kimi sual verərsən:
“Bəs sonra?”
Ağlın haradaydı sənin
hamı xoşbəxt olmaq üçün
ordan bura, burdan ora qaçanda?
İnsanları tanımaqçün yox
İnsanları tanıya bilməməkçün
səcdəyə səsləmişdi Allah.
Uduzdun, gözəl.
Dərdindən göz yaşı çıxmayacaq qədər
dərdlisən indi.
Ağlaya bilməmək
hər gün ağlamaqdan daha betərdi, bilir-
sən indi...
Yorma özünü, yorma...
Gün gələr,
əlbət bu da keçər...

* * *

Unutmaq çətin deyil
sevməmək də
səni düşünməmək
səndən sonra gələn ikinci vərdişdir
həyat elə də davam edir,
belə də.
Sən olsan da, olmasan da
hər bahar mən yenə kimisə sevəcəm
qırılsam da
bir gün mütləq
birinə inanacam yenə
günəş həmin rəngdə olmasa da
yenə parlayacaq
dəyişən nədir, bilirsən,
səhnə həmin səhnə də olsa,
tamaşaçı nizamla yerinə otursa da
xoşbəxtlik geri qayıtmır,
səndən sonra.
Adam bir də xoşbəxt ola bilmir.
kimi sevirsən sev
olmur...

* * *

Qadın evə gəldi.
Çantasından çoxlu iş,
dəftər-kitab,
yorğunluq,
səbəbsiz kədər,
boş ürək çıxarıb
qoydu masaya.
Sonra
evdəki bişməmiş yeməyi,
oğlunun ağrıyan boğazına qoydu.
Bir azdan
bütün bunlardan bir sabah hazırlamalıy-
dı:
ümidli,
işıqlı,
xoşbəxt bir sabah.
Qadın başını əllərinin arasında həbs et-
di,
fikirləri uzaqlara getdi.
Yorğunluğunu soyunub
özü də
getmək istədi qadın.
Uzaqlara getmək istədi...

* * *

Yığılan nömrələr cərgəsində
adın yavaş-yavaş aşağı düşür
belə unudulur artıq sevgilər.
Facebookda “yaxın dostlar” siyahısından
çıxarılırsan
nə yazsan, xəbərim olmur.
daha əvvəlki qədər yaxın olmuruq
məsələn, sən parolunu dəyişirsən,
mən sənə olan etibarımı.
Çoxdan axtarmadığım adamlarla
mərkəzdə çay içirik axşamlar,
qadağan etdiyin bütün donları geyməyə
başlayıram,
səni bağışlamıram.
Qalib çıxmaq olmur bir sevgidən,
sən də kədərə boyanmısan,
mən də.
Telefona mesaj gəldi.
bilirəm, sən deyilsən.
İcazə ver, açım
birdən sən olarsan.

* * *

Bir qadın
Otuzundan sonra
yenə sevilər
yenə gözəldir
yenə qadındır,
Amma otuzundan sonra
qadın yorulub
üzülüb
o qədər qırılıb ki,
asta yerişi nazından deyil,
yükünün ağırlığındandır.
Həyat çılpaq dayanır
otuzundan sonra qadın qarşısında
Pərdələr enir
işıqlar sönür
Və otuzdan sonrakı başlayır.
Daha acı
çox acı
olduqca acı
amma o da
otuzdan əvvəlki kimi
elə həyatdır.
paltarını soyunmuş
yarpaqlarını tökmüş
üst-başı toz içində
həyat...

bir gün
o qədər yorulacaqsan ki, məndən
“getmə” deməyə taqətin olmayacaq
yağışda əks olunan küçə lampaları kimi
itəcək hər şey gözdən
dumanlı dalğalanaraq
onda
əlindən tutub
bir də qaldıran olmayacaq həyata
işıqları itirən
yağışlarla islanıb üşüyəcəksən
nə geri dönəcəklər
nə irəli gedəcəksən
bir gün elə yorulacaqsan ki,
“qal” deməyə dilin gəlməyəcək
yalnız
və yalnız
özünə yazığın gələcək



**Sahil Aranlı**

## YARALANDI

Sevdalanan dəli könlüm
Yüz yerindən yaralandı
Uydu vəfasız gözələ
Xoş günündən aralandı

Çıxmadı dərd hədəfindən
Keçdi yarın hər səhfindən
Sonunda yar tərəfindən
Yazıq qəlbi yaralandı

Dərd talayıb yemiş qəlbi
Qəm əlindən şişmiş qəlbi
Sahilin ölməmiş qəlbi
İki yerə paralandı.

## GETDİ

Bir gözəlin nakam eşqi
Vurdu mənə yar getdi.
Göz önündən itdi qəfil
Heç bilmədim hara getdi.

Gündən-günə verdi acı,
Qoydu başa ağ dən tacı,
Hazırlayıb dar ağacı.
Çəkdi məni dara getdi.

Xoş gün göyə sovrulanda,
Ürək dərddən qovrulanda,
Ayrılmırdı, ayrılanda
Məcbur geydi qara getdi.

Görmədik bu ömrün yazın,
Bəxt xoş günlərə tamarzı,
Sonda o sevdiyim qızın.
Qəlbi para-para getdi.

O gündən yoxdu bir xəbər,
Sahili aldı qəm-kədər
Bu eşqdən görmədik bəhər,
Saldı ahu-zara getdi.